https://doi.org/10.59849/2410-5600.2026.1.76
UOT: 82-3.512.162

**Gülşən Rzayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: gulsen.rzayeva35@gmail.com*

# ŞİFAHİ XALQ ƏDƏBİYYATI: KİTABİ-DƏDƏ QORQUD

*Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər.*

***Heydər Əliyev***

## Xülasə

Məqalədə Azərbaycan şifahi xalq ədəbiyyatının mühüm qolu olan "Kitabi-Dədə Qorqud" dastanı folklor irsinin fundamental nümunəsi kimi tədqiq olunur. Şifahi xalq ədəbiyyatının əsas xüsusiyyətləri – kollektivlik, anonimlik və variantlılıq kontekstində dastanın formalaşma prosesi, janr xüsusiyyətləri və milli-mənəvi dəyərlərin qorunmasındakı rolu elmi baxımdan təhlil edilir. Araşdırmada "Kitabi-Dədə Qorqud"un oğuz türklərinin ictimai-siyasi həyatı, adət-ənənələri, qəhrəmanlıq idealları, ailə münasibətləri və əxlaqi dəyərləri əks etdirən epik-didaktik mənbə olduğu göstərilir. Dastanın ayrı-ayrı boyları – "Basatın Təpəgözü öldürdüyü boy", "Dirsə xan oğlu Buğac boyu", "Dəli Domrul boyu", "Bamsı Beyrək boyu" və "Salur Qazanın evinin yağmalandığı boy" əsasında qəhrəmanlıq, ağıl və gücün vəhdəti, sədaqət, valideyn–övlad münasibətləri, qadın obrazlarının ictimai rolu kimi mövzular sistemli şəkildə şərh olunur. Eyni zamanda "Kitabi-Dədə Qorqud"un yalnız ədəbi abidə deyil, həm də tarixi, etnoqrafik və mədəni mənbə kimi əhəmiyyəti vurğulanır. Məqalədə dastanın müasir dövrdə milli kimliyin formalaşmasında, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində və ümumbəşəri dəyərlərin təbliğində aktuallığını qoruduğu nəticəsinə gəlinir.

***Açar sözlər:*** *şifahi xalq ədəbiyyatı, "Kitabi-Dədə Qorqud", folklor, milli-mənəvi dəyərlər, dastan, mədəni irs*

## Giriş

*"Dədə Qorud"dastanları X-XI əsrlərin yadigarı olub Azərbaycan ədəbiyyatı tarixində ana dilində qələmə alınmış ilk böyük ədəbi abidədir. Oğuz qəbilələrinin Azərbaycana gəldiyi əsrlərin tarixi hadisələri ilə səsləşən müxtəlif dastanlar XI əsrdə bizə məlum olmayan bir şəxs tərəfindən yazıya köçürülmüş və bu dastanlar "Kitabi-Dədə Qorud" adı ilə məşhurlaşmış və Azərbaycan şifahi xalq ədəbiyyatının dəyərli nümunələri olduğu kimi, Azərbaycan yazılı ədəbiyyatının da qədim nümunəsi kimi böyük əhəmiyyətə malikdir.*

*Şifahi xalq ədəbiyyatı xalqın kollektiv yaddaşının, estetik təfəkkürünün və dünyagörüşünün bədii ifadəsi kimi formalaşmış mədəni fenomen hesab olunur. Folklor nümunələri yalnız bədii yaradıcılıq məhsulu deyil, həm də sosial-mədəni münasibətlərin, etnik identikliyin və tarixi təcrübənin ötürülməsində mühüm rol oynayan kommunikativ sistemdir.*

*"Kitabi-Dədə Qorqud" dastanı məhz bu kontekstdə yalnız epik bədii nümunə deyil, həm də türk xalqlarının mədəni yaddaşını, sosial strukturlarını və dünyagörüşünü əks etdirən fundamental mənbə kimi qiymətləndirilməlidir.*

*"Kitabi-Dədə Qorud"un ilk nüsxəsinə XIX əsrin əvvəllərində Almaniyada Drezden Kral kitabxanasında təsadüf edilmişdir. Bu yazma nüsxə haqqında Fleyşer kataloqunda məlumat vardır və bu əlyazmasının surəti XIX əsrin başlanğıcında alman şərqşünaslarından Dits tərəfindən çıxarılmışdır.*

*Avropada bu əlyazmasından ilk dəfə istifadə edən alim Dits olmuşdur. Dits bu əsərdən "Təpəgöz" nağlını almanca çap etmişdir. Dits əsərin çox yerini yanlış tərcümə etmişsə də, əsər haqqında orijinal fikirlər də söyləmişdir. O,"Təpəgöz" boyunu Homerin "Odisseya"sı ilə müqayisə etmiş, hətta "Odissya"nın yaradılmasında bu dastandan istifadə edildiyini söyləməklə əsərin çox qədim olması iddiasını irəli sürmüşdür.*

*XVI əsrdə köçürülmüş bu nüsxə daha sonralar şərqşünas Nöldekenin diqqətini cəlb etmişdir. Nöldekedən sonra bu abidə ilə böyük rus alimi Bartold tanış olmuşdur. Bartold 1894-cü ildə əsər haqqında ümumi məlumat vermiş və "Duxa Qoca oğlu Dəli Domrul" boyunu ruscaya tərcüməsi ilə bərabər nəşr etdirmişdir. Bartoldun bu təşəbbüsü rus şərqşünasları içərisində böyük maraq oyatmışdır.*

*Bu abidə haqqında Türkiyə alimləri də geniş tədqiqat işləri aparmışlar. 1916-cı ildə Kilisli müəllim Rifət eposu Berlin nüsxəsi əsasında ərəb əlifbası ilə nəşr etmişdir. Lakin naşir əsərin bir sıra yerlərini oxuya bilməmiş, bəzi sözlərini təhrif etmiş, bəzi yerlərini isə açıq buraxmışdır.*

*1938-ci ildə yenə də türk alimi Orxan Şaiq Kökyay əsəri nəşr etmişdir. Eyni ildə əsər Azərbaycanda latın əlifbası ilə çap olunmuşdur. [1, s 40-42]*

*Daha sonra İtaliya şərqşünası professor Rossi bu abidənin başqa bir variantını tapıb 1952-ci ildə Vatikanda böyük bir müqəddimə ilə nəşr etmişdir. Bu nüsxə müqəddimə və 6 boydan ibarətdir.*

*"Dədə Qorqud" dastanları üzərində tədqiqat aparan alimlər Dədə Qorqudun şəxsiyyəti, dastanların məzmunu, əhəmiyyəti, əsərin dili, üslubu və sairə haqqında mülahizələr irəli sürmüşlər.*

*Bu tədqiqatçılar içərisində diqqəti cəlb edən ilk görkəmli iş akademik Bartold tərəfindən görülmüşdür. Bartold gənc yaşlarından ta ömrünün son günlərinə qədər bu əsər üzərində işləmiş və son əsərlərindən birində o yazmışdır ki: "Bu dastanların Qafqaz mühitindən başqa bir yerdə yaranmış olduğunu ehtimal etmək mümkün deyil" [2, s.50-53]*

## Azərbaycan mədəniyyətinin ulu qaynağı Kitabi-Dədə Qorqud

Azərbaycan mədəniyyətinin ulu qaynağı olan "Kitabi-Dədə Qorqud" təkcə öz yarandığı çağda deyil, eyni zamanda müasir dövrümüzdə də milli mənəviyyatımızın, ədəbiyyat və incəsənətimizin ideya bünövrəsi olaraq qalmışdır. Azərbaycan tarixinin bütün milli-mənəvi dəyərlərini özündə cəmləşdirən bu ulu abidə elə bir enerji mənbəyidir ki, çağdaş milli mənəviyyat və mədəniyyət tariximizi onsuz təsəvvür etmək mümkün deyildir.

"Dədə Qorqud"dastanlarında təsvir edilən hadisələrin Gəncə, Bərdə, Dərbənd, Şərur, Əlincə çayı və Əlincə qalası, Dərəşam, Göyçə gölü və sairə ərazilərdə baş verməsi, məhz bu dastanın Azərbaycanda – bu mühitdə yaranması ilə xarakterizə olunur.

"Dədə Qorqud"un Azərbaycanla bağlı olduğunu vaxtı ilə müxtəlif məqsədlə Qafqaza gəlmiş alimlər, səyyahlar da dəfələrlə qeyd etmişlər. Adam Oleari hələ 1638-ci ildə Dərbənddə olduğu zaman azərbaycanlılardan Dədə Qorqud hekayələrini eşitdiyini, Qazan xanın və arvadı Burla xatunun, eləcə də Dədə Qorqudun özünün burada qəbirləri olduğunu qeyd etmişdir. Həmin əsrin ortalarında Şamaxıya gəlmiş səyyah Övliya Çələbi isə öz səyahətnaməsində Dərbənddə Dədə Qorqud qəbri olduğunu şirvanlıların bu qəbrə böyük ehtiram bəslədiklərini, hətta etiqad etdiklərini yazmışdır. [2, s.50-59]

"Dədə Qorqud" dastanlarında on iki boy və bir müqəddimə vardır. Bu dastanlar ayrı ozanlar tərəfindən, ayrı-ayrı vaxtlarda yaradılmış əsərlərdir. Boyların əksəriyyəti bütün dünya xalqlarının qəhrəmanlıq eposlarında olduğu kimi, epik qəhrəmanların daxili və xarici düşmənlərə qarşı apardıqları müharibələrdən bəhs edir.

Əsərin mərkəzində Oğuz eli dayanır. Burada xanlar, bəylər və igidlər öz yurdlarını qoruyur, düşmənlə mübarizə aparır, ailə və namus uğrunda savaşırlar. Boyların əvvəlində və sonunda Dədə Qorqudun duası və nəsihəti verilir ki, bu da əsərə xüsusi kompozisiya qazandırır.

"Kitabi-Dədə Qorqud" dastanı yalnız qəhrəmanlıq motivlərinin təsviri ilə məhdudlaşmır, eyni zamanda oğuz cəmiyyətinin sosial strukturu, hakimiyyət münasibətləri, ailə institutu və mənəvi-etik normaları haqqında geniş təsəvvür yaradır. Dastanda kollektivçilik ideyası, ictimai bilik və sosial həmrəylik əsas ideoloji xətt kimi çıxış edir.

Dastanda təsvir olunan qəhrəman obrazları yalnız fikizi gücün deyil, həm də mənəvi kamilliyin, ədalət prinsipinin və ictimai məsuliyyətin daşıyıcıları kimi təqdim edilir. Bu baxımdan, epos türk dünyasının etik sisteminin formalaşmasında mühüm rol oynamışdır.

Dastanın ən mühüm obrazlarından biri Dədə Qorquddur. O, hadisələrin birbaşa iştirakçısı olmasada, mənəvi rəhbər və müdrik ağsaqqal kimi çıxış edir. O, igidlərə ad verir, xeyir-dua edir, çətin vəziyyətlərdə yol göstərir.

Dədə Qorqud xalqın ağıl və müdriklik simvoludur. Onun sözləri ibratəmiz və hikmətlidir. Bu baxımdan, o, yalnız dastan qəhrəmanı deyil, həm də milli-mənəvi dəyərlərin daşıyıcısıdır.

"Dədə Qorqud" dastanları daha çox köçəri-patriarxal qəbilə qurluşunun pozulduğu, feodal münasibətlərinin qüvvətləndiyi əsrlərin məhsuludur. Burada təsvir edilən cəmiyyətin başında xanlar xanı Bayandur xan durur. Əsərin əsas qəhrəmanı isə Qazan xan və onun ətrafında birləşən bahadırlardır. Eyni zamanda burada "qarğı cida gəzdirən", "rəiyyət" qəhrəmanlarından, nökərlərdən-çobanlardan da bəhs edilməkdədir.

Dastanlarda çox zaman Qazan xanın qəhrəmanlığından bəhs olunur. Salur Qazan "qırış günü öndən təpən" qəhrəmandır. "Ulaş oğlu, tulu quşun yavrusu, qonur atın ayası, xan Uruzun ağası, Bayındır xanın göygüsü"- deyə tanıdılan bu qəhrəman əsas simalardan biridir. Onun evinin yağmalanması, oğlunun və özünün əsir alınması, qəhrəmanlığı təsvir olunur. O, xalqına sadiq, fədakar, vətənpərvər, yenilməz və cəsarətli bir qəhrəman kimi göstərilir.

Qazan oğlu Uruz da atası kimi yenilməz igiddir. O, iki dəfə düşmənə əsir düşür. Hər ikisində də mərdliklə hərəkət edir. O, namus uğrunda çəngəldən asılıb ətinin qıyma-qıyma doğranmasına razı olur, anasının tanınıb düşmən məclisinə aparılmasına razı olmur. Uruz atasını əsirlikdən xilas edir. Atası onu sınamaq üçün özünü nişan vermir. Uruz isə meydanda qəhrəmanlara qalib gələn atasından üstün çıxır.

Dastanların başqa qəhrəmanları Oğuz bəylərindən ibarətdi. Bozatlı Beyrək, Dirsə xan oğlu Buğac kimi bəy oğulları öz qəhrəmanlıqları ilə nüfuz və ad qazanmış igidlərdir.

"Kitabi-Dədə Qorqud" dastanının ən məşhur boylarından biri "Basatın Təpəgözü öldürməsi" boyudur ki, bu boyun məzmununda göstərilir ki, Oğuz elində bir çoban bir pəri ilə evlənir və onlardan Təpəgöz adlı qorxunc bir məxluq doğulur. O, adi insanlardan fərqli olaraq tək gözlü, çox güclü və vəhşi olur. Böyüdükdən sonra Oğuz elinə düşmən kəsilir, insanları yeyir və onları qorxuya salır. Heç kim ona qalib gələ bilmir, çünki onu silah belə yaralamır.

Heç bir insana mərhəmət göstərmir, qohumluq və dostluq anlayışına malik deyil. Təpəgöz Oğuz elinin başına böyük bəla olur. Onu dayandırmaq üçün Oğuz bəyləri çox cəhd edirlər, lakin heç biri ona qalib gələ bilmir. Təpəgöz getdikcə daha çox insanı öldürür və qorxu saçır.

Bu qorxunc vəziyyətdə Oğuz elinin igidi Basat ortaya çıxır. Basatın uşaqlıq dövrü də qeyri-adidir. O, Oğuz bəylərindən biri olan Aruz Qocanın oğludur. Basat uşaqlıqda itir və bir müddət çöl heyvanları tərəfindən böyüdülür. Onu bir aslan tapıb qoruyur və Basat bu vəhşi mühitdə böyüyərək güclü, qorxmaz bir döyüşçüyə çevrilir. Bu səbəbdən də adı "Basat" qoyulur, bu, "Aslan kimi güclü" və ya " Qorxmaz igid" mənasında işlədilir. Basat insanlarla yenidən qarşılaşanda artıq çox güclü və qorxmaz bir döyüşçü kimi tanınır. Basat çox ağıllıdır. O, Təpəgözü açıq döyüşdə məğlub edə bilməyəcəyini bilir və onu hiylə ilə öldürmək qərarına gəlir. Basat gecə Təpəgözün yuxuya getməsini gözləyir. Təpəgöz çox yeyib içdiyinə görə dərin yuxuya gedir. Basat ocaqda dəmir bir nizə qızdırır və Təpəgöz yatarkən onun tək gözünü deşərək kor edir. Təpəgöz artıq görə bilmədiyinə görə gücsüz qalır. Kor olan Təpəgöz Basatı mağarada tutmaq istəyir. O, mağaranın qapısını bağlayır ki, Basat qaça bilməsin. Lakin Təpəgöz qoyunları hər səhər mağaradan buraxır. Basat bir qoyunun dərisi altına

girir və beləliklə, mağaradan çıxmağı bacarır. Bu, Basatın yalnız güc deyil, həm də zəkadan istifadə etdiyini göstərir.

Mağaradan çıxdıqdan sonra Basat Təpəgözü tamamilə məhv etməlidir. Təpəgöz kor olduğu üçün gücsüzdür. Basat hücum edərək onu qılıncla öldürür. Beləliklə, Oğuz eli bu qorxunc düşməndən qurtulur. Təpəgözün öldürülməsi gücün təkbaşına kifayət etmədiyini, ağılla birlikdə lazım olduğunu göstərir. [3, s.209-211] Bu hadisə Oğuz dastanlarının ən maraqlı hissələrindən biri hesab edilir.

**Kitabi-Dədə Qorqud xalqın qəhrəmanlıq simvoludur**

"Kitabi-Dədə Qorqud" dastanında epik qəhrəman tipi ideal insan modelinin bədii təcəssümü kimi təqdim olunur. Bu modeldə fiziki güc, ağıl, sədaqət, cəsarət və mənəvi saflıq vəhdət təşkil edir. Qəhrəmanların davranış modeli oğuz cəmiyyətində qəbul olunmuş sosial və etik normaların ifadəsi kimi çıxış edir.

Dastanda qəhrəmanların sınaqlardan keçməsi onların yalnız fiziki deyil, həm də mənəvi kamillik səviyyəsini müəyyənləşdirən əsas meyar kimi təqdim olunur. Bu xüsusiyyət epik mətnin didaktik xarakterini gücləndirir.

Xalq qəhrəmanlığı ruhunda qurulmuş olan bu dastanlarda, xüsusən Qaraca Çoban surəti diqqəti cəlb edir. Sədaqətli qəhrəman altı yüz nəfərlik bir düşmən dəstəsi ilə təkbaşına vuruşmalı olur. Onu satın almaq istəyirlər. Ona hədə gəlirlər, o qorxmur, təpədən dırnağa qədər silahlanmış düşmənə müqavimət göstərir.

Onun iki qardaşı öldürülür. Lakin çoban ruhdan düşmür, qalib gəlincəyə qədər mərdliklə vuruşur. Daşı tükənir, sapanına qoyun-keçi qoyub atır. Bir atanda ikisini-üçünü öldürür. Düşmənin gözünü qorxudur. Onun sapanının içi "üç yaşar dana dərisindəndir", qolları üç keçi qılından toxunmuşdur; hər atanda on iki batman daş atır, atdığı daş yerə düşmür, düşəndə toz kimi sovrulur, ocaq kimi ovulur; daş düşən yerdə üç il ot bitmir.

"Kitabi-Dədə Qorqud" dastanının məşhur boylarından biri də "Dirsə xan oğlu Buğac boyu" adlanır. Bu boy ata-oğul münasibətləri, qəhrəmanlıq və adqoyma ənənələri kimi mövzuları əhatə edir.

Oğuz elinin bəylərindən biri olan Dirsə xan və onun həyat yoldaşı oğulsuz olduqları üçün çox kədərlənirlər. Oğuz bəyləri ildə bir dəfə böyük toy-məclis qururlar. Qaydaya görə: Oğlu olanlar ağ otağa, qızı olanlar qırmızı otağa, övladı olmayanlar isə qara otağa salınırdı.

Dirsə xan övladı olmadığı üçün qara otağa salınırdı. Bu, onun üçün böyük rüsvayçılıq sayılır. O, çox kədərlənir və arvadını günahlandırır. Arvadı isə ona səbrli olmağı, nəzir verməyi məsləhət görür.

Dirsə xan Tanrıya dua edir və nəhayət bir oğlu dünyaya gəlir. Bu oğlana Buğac adı verilir.

Buğac igid bir oğlan kimi böyüyür və atasının elində hörmət qazanır. O, ilk döyüşünü edərək düşməni məğlub edir və öz igidliyini sübut edir. Bütün el onun qəhrəmanlığına heyran qalır. Dirsə xanın bəzi düşmənləri onun qulağına pis sözlər deyirlər: "Oğlun sənin yerini tutacaq, səni taxtından salacaq!" Dirsə xan oğlunun çox güclü olmasından qorxaraq onu öldürmək qərarına gəlir. O, bir qrup igidə Buğacı öldürməyi əmr edir. Buğac atasının adamları tərəfindən ağır yaralanır, lakin ölmür. Anası onu tapır və sağ olduğunu anlayır. Oğlunun sağ qaldığını görən ana "Buğac" adını verir [4, s.55-60].

Adqoyma ənənəsinə görə, türklərdə uşağa ad, o, müəyyən qəhrəmanlıq göstərdikdən sonra verilirdi. Dirsə xan oğlunun sağ olduğunu və həqiqətən sadiq, mərd bir oğuz igidi olduğunu anlayır. Səhvini başa düşərək oğlunu bağışlayır.

Buğac atasının ona qarşı etdiyi haqsızlığa baxmayaraq kin saxlamır. Bu davranış ailə birliyinin hər şeydən üstün olduğunu göstərir. Onun qəhrəmanlığı yalnız fiziki gücdə deyil, həm də mənəvi ucalığındadır.

Buğac atasının yerinə keçərək Oğuz elinin igid bir bəyi olur və xalqına böyük xidmətlər göstərir.

"Kitabi-Dədə Qorqud" dastanında ən məşhur boylardan biri "Dəli Domrul boyu"dur. Bu boy həm qəhrəmanlıq, həm də mistik elementlər ilə zəngin olub, dərin mənalar daşıyan bir hekayədir.

Dəli Domrul, Oğuz elinin ən igidlərindən biri olub, qorxmaz və çox cəsur bir döyüşçüdür. Lakin onun təbiəti qəzəbli və hiddətlidir. Bu da onu bəzi hallarda başqalarına zərər verməyə sövq edir. Bir gün Domrul qarşısına çıxan bir məxluqla qarşılaşır. Bu məxluq ölüm mələyidir, ona həyatını almaq üçün gəlir. Domrul bunun qarşısını almağa çalışır və Allahdan ölümsüzlük diləyir. Ölüm mələyi Domrulun qəzəbli və inadkar xarakterinə hörmət edərək, ona bir şərt qoyur.
Əgər bir can seçsə, canı xilas olacaq. Domrul, ilk növbədə, həyat yoldaşını seçir, amma həyat yoldaşı da canını vermək istəmir. Nəhayət, Domrul ölüm mələyi ilə barışır və ondan birdəfəlik əfv diləyir. [5, s.96-100] Allahın mərhəməti ilə Domrul həyatını qaytarır, amma bu hadisə ona dərs verir və o, daha ağıllı və təvazökar olur.

Dəli Domrul göstərir ki, həqiqi igidlik təkcə güc deyil, həm də ağıllı, mərd və mənəvi qüdrətli olmaqdır. Onun obrazı dastanın əsas ideyalarını −qəhrəmanlıq, mənəviyyat, şəxsiyyət azadlığı və xalqın mənəvi dəyərlərinin qorunması − əks etdirir və şifahi xalq ədəbiyyatının epik ruhunu canlandırır.

“Kitabi-Dədə Qorqud” dastanının ən məşhur boylarından biri də “Bamsı Beyrək boyu”dur. Bu boyda Bamsı Beyrək adlı igidin macəraları, cəsarət və sevgisi təsvir olunur. Bamsı Beyrək Oğuz elinin igidlərindən biridir. O, doğulduğunda böyük bir toy edilir və igid kimi böyüyür. Daha sonra Baybicanın qızı Banu Çiçəyə aşiq olur və onunla nişanlanır. Lakin toydan əvvəl düşmənlər tərəfindən əsir alınır və uzun illər zindanda qalır. Beyrək əsirlikdə olarkən bacarığı, şücaəti və məharəti ilə düşmənlərinin hörmətini qazanır. Zindanda olarkən xəbərləşmək üçün tütək çalaraq sevdiyi Banu Çiçəyə mesaj göndərir. Uzun müddət sonra fürsət tapıb qaçır və Oğuz elinə qayıdır. Gəldiyində isə Banu Çiçəyin başqa biri ilə evləndirilmək üzrə olduğunu öyrənir. Lakin toyda özünü tanıtdıraraq sevdiyini geri alır.

Bamsı Beyrək obrazı Azərbaycan və ümumi türk ədəbiyyatında ideal qəhrəman və aşıq simvolu kimi qəbul edilir [6, s. 41-49].

Dastanda qadın obrazlarının fəal mövqedə təqdim olunması orta əsr türk cəmiyyətində qadının yüksək sosial statusa malik olduğunu göstərir. Qadın obrazları ailə institutunun qoruyucusu olmaqla yanaşı, ictimai və hərbi fəaliyyətlərdə də iştirak edən güclü sosial subyekt kimi təsvir edilir. Bu xüsusiyyətlər dastanın patriarxal strukturuna malik cəmiyyət modelini əks etdirməsinə baxmayaraq, qadınların sosial rolunun yüksək qiymətləndirildiyini göstərir.

Dastanlarda qadınlar da kişilər kimi mərd və mübarizdilər. Arvadın ərə, ananın oğula, bacının qardaşa məhəbbəti, nişanlı qızların sədaqəti dastanın əsas motivlərindəndir. Qadınlar at minən, ox atan, hünərli və cəsurdurlar. Dirsə xanın arvadı oğlunun ovdan dönmədiyini gördükdə atını minir, qırx incə belli qız ilə onu axtarmaq üçün dağlara çıxır. Yaralanmış oğlunu tapıb gətirir. Qazanın oğlu Uruz əsir düşdükdə, boyu uzun Burla xatun silahlanır, oğlunu qurtarmaq üçün yola düşür. Vuruşda adlı-sanlı qəhrəmanlarla birlikdə iştirak edir. Qoğan adlı pəhləvanı qılınclayıb atdan yerə salır, şücaət göstərir.

Qanturalının nişanlısı Selcan xatun əri ilə bir yerdə vuruşur. Öz hissəsinə düşən yağını qovur, yaralanmış ərinə köməyə gəlir. “Yağının bir ucu mənim, bir ucu sənin” - deyə vuruşur, sevgilisini ölümdən qurtarır. Bu qız xalq içində “Ov ovlayıb, quş quşlaması”, “sağına-soluna” iki qoşa yay çəkməsi,” “atdığı oxun yerə düşməməsi” ilə məşhurdur.

Banuçiçək mükəmməl gözəlliyi və nəcibliyi ilə tanınır. Ancaq o, sadəcə gözəl deyil, həm də igid bir qızdır. Banuçiçək kişilər kimi ox atır, qılınc oynadır, at çapır. Bu, orta çağ türk cəmiyyətində belə qadınların həm hörmətli, həm də sosial rola sahib olduğunu göstərir. Bu dastan Azərbaycan xalq ədəbiyyatının ən qiymətli nümunələrindən biri olaraq, qəhrəmanlıq və vəfa mövzularını dərindən işləyir və Banuçiçək kimi obrazlarla zənginləşir.

Banuçiçək gedəcəyi oğlanı əvvəl sınaqdan keçirir. Onunla ox atır, at sürür, güləşir. Beyrəyin qəhrəmanlığını təsdiq etdikdən sonra onunla evlənməyə razı olur.

Dastanda anaya, qadına hörmət fikri təbliğ olunur.

Bu əsərin dili türk dilində danışan bir sıra xalqlara yaxın olsa da, öz lüğət tərkibi, frazeoloji ifadələri və qrammatik qurluşu etibarilə digər türk dillərinin hamısından daha çox Azərbaycan dilinə bağlıdır.

“Dədə Qorqud”dastanının bədii xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, bütün obrazlı ifadələr canlı danışıq dilindən alınmışdır. Təbiətdən alınan müqayisələr, təşbehlər son dərəcə maraqlı və sadədir. Qanturalını gördüyü zaman qızın ona məftun olması “öysəl olmuş dana kimi ağzının suyu axdı” şəklində ifadə olunmuşdur. Arvadını hamilə qoyub getmiş Qazlıq Qoca qayıdıb gələndə arvadının oğlumu, ya qızımı olduğunu belə sual edir:

*Qəytəbanın mayasın yüklü qoydum*
*Nərmidir, mayamıdır, onu bilsəm?*
*Qara elin qoyununu yüklü qoydum,*
*Qoçmudur, qoyunmudur, onu bilsəm?*
*Ala gözlü görklü halalım yüklü qoydum,*
*Ərkəkmidir, qızmıdır, onu bilsəm?*

Cavab da eynilə köçəri-maldarlıq həyatından alınmış ifadələrlə verilir:

*Qəytabanın mayasını*
*Yüklü qoydun, nər oldu*
*Qara eldə qoyunun*
*Yüklü qoydun, qoç oldu*

Qəhrəmanın düşmən ordusuna hücumu: “Bir bölük qaza şahin girmiş kimi at saldı” – deyə təbii bənzətmə ilə ifadə olunur.

Dastanın poetik strukturu epik təhkiyə ilə lirik elementlərin sintezi əsasında formalaşmışdır. Nəsr və nəzmin paralel işlənməsi mətnin ritmik təşkilini gücləndirir və şifahi ifa ənənəsinin xüsusiyyətlərini əks etdirir.

Narrativ struktur hadisələrin dramatik inkişafı, dialoqların aktiv istifadəsi və epik paralelizmlər vasitəsilə qurulmuşdur. Bu xüsusiyyətlər dastanın həm bədii-estetik, həm də kommunikativ funksiyasını gücləndirir.

Dastanlarda nəzmin ibtidai formasına rast gəlirik. Bu şeirlərdə vəzn və qafiyə o qədər də bacarıqla işlənilməmişdir. Xüsusən ozanlar dastanın mənzum hissəsini qopuz havalarına uyğun oxuduqları zaman misralardakı kəlmələri musiqinin ahənginə görə uzadıb-qısaltdıqları üçün vəznə o qədər də əhəmiyyət verməmişlər.

Başqa bir yerdə qadın gözəlliyi belə bədii ifadələr ilə təsvir olunmuşdur:

*Qar üzərində qan dammış kimi qızıl yanaqlum,*
*Qələmçilər çaldığı qara qaşlum,*
*Qurumsu qırx tutam sara saçlum...*

Dastanların nəsr dili ahəngdar bir dildir, cümlələr qafiyəlidir. Burada qoşa kəlmələrə tez-tez rast gəlmək olur: “Ov ovladı, quş quşladı”, “Oğuz bəylər ilə Dondar sağa təpdi, igidlərlə Qarabudaq sola təpdi”, “Ünüm ünlə, sözüm dinlə” və sairə.

Dil baxımından “Kitabi-Dədə Qorqud” qədim Azərbaycan-türk dilinin zəngin xüsusiyyətlərini yaşadır və dil tariximizi öyrənmək üçün qiymətli mənbədir. Əsər qədim türk dilindən müasir Azərbaycan dilinə keçid prosesini göstərir.

Əsərdə işlənən bir çox sözlər bu gün də dilimizdə yaşayır: Alp (igid); Bəg (bəy); Xatun; Yağı (düşmən); Qılınc.

Bəzi sözlər isə arxaikləşmişdir və yalnız tarixi mətnlərdə qorunub saxlanılmışdır. Bu baxımdan, dastan dil tariximizi öyrənmək üçün mühüm qaynaqdır.

Əsərdə bu gün işlənməyən və ya mənası dəyişmiş bir çox qədim sözlər mövcuddur. Bu arxaizmlər dastanın qədimliyini və tarixi dəyərini göstərir. Həmin sözlər türk dillərinin inkişaf tarixini öyrənmək baxımından da mühüm əhəmiyyət daşıyır.

Dil ağır və mürəkkəb deyil. Sadə cümlə quruluşu və axıcı üslub hadisələrin dinamik şəkildə təqdim olunmasına kömək edir. Bu xüsusiyyət dastanın xalq arasında asanlıqla yadda qalmasına səbəb olmuşdur.

Dastanda çoxlu atalar sözləri, dualar və sabit ifadələr mövcuddur. Bu, xalq hikmətinin və müdrikliyinin dil vasitəsilə ifadəsidir. Xüsusilə Dədə Qorqudun söylədiyi hikmətli sözlər mətnə fəlsəfi dərinlik verir [7, s 78-80].

Əsərdə dialoqlar geniş yer tutur. Qəhrəmanların bir-birilə danışığı canlı və təbii təqdim olunur. Bu isə mətni dinamik və dramatik edir.

Bu dastan həm dilçilik, həm ədəbiyyat, həm də tarix elmi üçün əvəzsiz qaynaqdır. "Dədə Qorqud" dastanları sonrakı xalq yaradıcılığı inkişafına böyük təsir göstərməklə bərabər yazılı ədəbiyyatda da müəyyən izlər buraxmışdır.

Beləliklə, "Kitabi-Dədə Qorqud" Azərbaycan şifahi xalq ədəbiyyatının zirvə nümunəsidir. O, xalqın qəhrəmanlıq ruhunu, mənəvi dəyərlərini və milli kimliyini qoruyub saxlayan əbədi irsdir.

## Nəticə

*Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan və ümumtürk mədəniyyətinin formalaşmasında mühüm rol oynamış epik abidə kimi yüksək elmi əhəmiyyətə malikdir. "Kitabi-Dədə Qorqud" oğuz türklərinin həyatını, qəhrəmanlığını, adət-ənənələrini əks etdirən epik-didaktik dastandır. Həmçinin dastan oğuz türklərinin sosial quruluşunu, mənəvi dəyərlər sistemini, qəhrəmanlıq ideallarını və ailə münasibətlərini əks etdirən kompleks mədəni mənbədir. Bu əsər türk xalqının qədim dövrlərdəki yaşayış tərzini, adət-ənənələrini, qəhrəmanlıq ruhunu və ailə-məişət münasibətlərini əks etdirən zəngin ədəbi nümunədir. Bu dastan yalnız bir ədəbiyyat əsəri deyil, həm də tarix və etnoqrafik mənbə kimi dəyərlidir.*

*"Kitabi-Dədə Qorqud" dastanında Dədə Qorqud obrazı ağsaqqalıq, müdriklik və xalqın birliyi rəmzi kimi təqdim olunur. Əsərdəki qəhrəmanlıq, vətənpərvərlik, səadət, ailə sevgisi kimi mənəvi dəyərlər bu gün də öz aktuallığını qoruyur və gənc nəslin tərbiyəsində mühüm rol oynayır.*

*Bu əsər bizə öyrədir ki, insan üçün ali dəyərlər vətənə sədaqət, ailəyə bağlılıq, sözə düz olmaq, mərdlik və ədalətdir. Məhz bu keyfiyyətlər sayəsində xalq öz varlığını qoruyur və tarix səhnəsində yaşayır. Oğuz eli yalnız bir olduğu zaman güclüdür. Parçalanma və daxili çəkişmələr zəiflik yaradar. Bu fikir bu gün də öz aktuallığını qoruyur və cəmiyyət üçün mühüm mesaj daşıyır.*

*Biz "Kitabi-Dədə Qorqud"un vəsiyyətlərindən bu gün həyatımızda istifadə edərək xalqımızda vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik hisslərini daha da artırırıq.*

*"Kitabi-Dədə Qorqud" dastanı təkcə keçmişin aynası deyil, həm də bu gün üçün mənəvi yol göstəricisidir. Dastanın milli kimliyin formalaşmasında və mədəni yaddaşın qorunmasında rolu müasir dövrdə də aktuallığını saxlayır.*

*Bu baxımdan, "Kitabi-Dədə Qorqud"un sistemli öyrənilməsi Azərbaycan folklorşünaslığının prioritet istiqamətlərindən biri olaraq qalır.*

## Ədəbiyyat siyahısı:

1. Araslı, H. Dədə Qorqud / – Bakı: – 1962. – səh. 40-42.
2. Azərbaycan Ədəbiyyatı Tarixi (ən qədim dövrdən XVIII əsrin sonuna qədər) / – Bakı: AMEA nəşriyyatı, – 1960. – c.1., – səh.50-59
3. Bayat, F. Dədə Qorqud Oğuznamələri / – Bakı: Şərq-Qərb, – 2006. – səh 209-211.
4. Aslan, V. Dədə Qorqud dastanlarında ailə və ictimai münasibətlər / – Bakı: – 2012. – səh 55-60.
5. Dadaşzadə, M.A. Dədə Qorqud dastanlarının dili və üslubu / – Bakı: – 1988. – səh.96-100.
6. İsmayılov,R. Kitabi-Dədə Qorqudun poetikası / – Bakı: – 2008. – səh 41-49.
7. Yusifli, X. Kitabi-Dədə Qorqud Dastanının Poetikası/ – Bakı: – 2004. – səh78-80.

**Gulshan Rzayeva**

## ORAL FOLK LITERATURE: KITABI-DEDE GORGUD

*Summary*

The article examines the epos "Kitabi-Dede Gorgud", which is an important branch of Azerbaijani oral folk literature, as a fundamental example of folklore heritage. In the context of the main features of oral folk literature – collectivity, anonymity and variance-the process of formation of the epic, its genre features and role in preserving national and spiritual values are analyzed from a scientific point of view. The study shows that "Kitabi-Dede Gorgud" is an epic-didactic source reflecting the socio-political life, traditions, heroic ideals, family relations and moral values of the Oguz Turks. Themes such as heroism, unity of mind and strength, loyalty, parent-child relations, social role of female characters are systematically interpreted on the basis of different heights of the epic – "the height of Basat killed Tepegoz", "the height of Dursa Khan Oglu Bughaj", "the height of Mad Domrul", "the height of Bamsi Beyrak" and "the height of Salur Gazan's house looted". At the same time, the importance of "Kitabi-Dede Gorgud" as not only a literary monument, but also a historical, ethnographic and cultural source is emphasized.

The article concludes that the epic retains its relevance in the formation of national identity in modern times, in the education of the younger generation in the spirit of patriotism and in the promotion of universal human values.

***Keywords:*** *oral folk literature, "Kitabi-Dede Gorgud", folklore, national-moral values, EPOS, cultural heritage*

*Filologiya üzrə fəlsəfə doktoru* ***Rəna İskəndərli***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*